Qüdrət Həsənquliyev Ermənistandakı revanşist qrupların üçtərəfli bəyanata qarşı çıxmalarına da münasibət bildirdi. "Hazırkı şəraitdə onlar Azərbaycanla yeni müharibə barədə düşünə bilməzlər. Çünki özləri də bilirlər ki, bu, Ermənistanın tamamilə məhvinə gətirib çıxarar. Revanistlərin məqsədi sadəcə yaranmış vəziyyətdən istifadə edib baş nazir Nikol Paşinyanı devirməkdir. Bunu da belə əsaslandırırlar ki, guya Paşinyan münasibətləri zədələdiyinə görə Rusiya Ermənistana dəstək verməyib. Amma revanşistlərin özləri də bildirirlər ki, üçtərəfli bəyanatdan imtina etməyəcəklər. Çünki həmin sənədi imzalayanların biri Rusiya Prezidentidir. Vladimir Putin bildirib ki, üçtərəfli razılaşmadan imtina intihara bərabərdir. Ona görə Ermənistanda heç kim Azərbaycanla yeni müharibəyə başlamağı risk etməz. Azərbaycan yerində dayanmayıb və müharibə başa çatsa da, hərbi xərclərini nəinki azaltmadı, hətta artırdı. Ölkəmiz ən müasir silahlar almaqda davam edəcək. Bu sahədə qardaş Türkiyənin inkişat etmiş hərbi sənaye kompleksinin ən müasir silahları ordumuzun arsenalına cəlb ediləcək. Prezident İlham Əliyevin də dediyi kimi, Türkiyənin gücü bizim gücümüzdür. Bu baxımdan düşünmürəm ki, Ermənistan cəsarət edib Azərbaycana qarşı yenidən işğal siyasəti yürütmk fikrinə düşsün".

BAXCP sədri onu da dedi ki, regionumuzda yaranmış yeni reallıqdan irəli gələn əməkdaşlıqla bağlı birdən-birə hər şeyin rəvan gedəcəyini düşünmək doğru deyil! "Düşünürəm ki, zamanla bu əməkdaşlıq yaranacaq, genişlənəcək və onda sərt hərbi ritorikadan da imtina olunacaq. Ermənilər də başa düşəcəklər ki, başqasının əlində alətə çevrilməklə yaşamaq mümkün deyil və ölkələrinin gələcəyi regionda qonşularla normal və sivil münasibətlərin qurulmasından keçir".

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının ilk iclası keçirilib





Martın 18-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının ilk iclası keçirilib.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin VII qurultaydakı çıxışından irəli gələn vəzifələrdən bəhs edib, bu vəzifələrin layiqincə icra edilməsində Veteranlar Şurasının üzvlərinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov YAP Veteranlar Şurasının Əsasnaməsinin yaradılmasının, partiyanın yeni proqramına dair təklif və tövsiyələrin işlənib hazırlanmasının qarşıda duran əsas vəzifələrdən biri olduğunu diqqətə çatdırıb. Tahir Budaqov daha sonra Veteranlar Şurasının üzvlərini qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İclasda YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxış edərək göstərilən yüksək etimada görə Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevə təşəkkürünü bildirib. YAP-ın VII qurultayında Veteranlar Şurasının yaradılması haqqında qəbul edilmiş qərarı təqdirəlayiq hal hesab edən A.Rəhimzadənin sözlərinə görə, bu qurumun əsas vəzifələrindən biri yaşlı nəsil ilə gənclər arasında əlaqələrin gücləndirilməsidir: "Bizlər 1990-cı illərin əvvəllərində respublikada mövcud olan proseslərin iştirakçıları olmuşuq. O dövrdə respublikada xaos, qeyri-sabitlik hökm sürürdü. Bu vəziyyətdən istifadə edən Ermənistan torpaqlarımızın bir hissəsini işğal etdi. Belə bir şəraitdə sağlam düşüncəli insanlar, ziyalılar dövlətimizi və xalqımızı düşdüyü bu ağır vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyevin xilas edə biləcəyini düşünürdülər. Yeni Azərbaycan Partiyası məhz belə bir şəraitdə yaradıldı. Bütün bu tariximizi isə biz gənc nəslə olduğu kimi çatdırmalıyıq".

YAP Veteranlar Şurasını sədri bu gün Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti sayəsində xalqımızın qələbə sevincini yaşadığını qeyd edib, bu uğurların davamlı olması üçün hər birimizin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

İclasda daha sonra YAP Veteranlar Şurasının Əsasnaməsinin hazırlanması ilə əlaqədar işçi qrupun yaradılması haqqında qərar qəbul olunub. Həmçinin Yeni Azərbaycan Partiyasının yeni proqramının hazırlanmasında təklif və tövsiyələrin irəli sürülməsi, eləcə də Veteranlar Şurasının iş planının hazırlanması ilə əlaqədar təkliflər müzakirə olunub.

Veteranlar Şurasının üzvlərindən Xeyrəddin Qoca, Südeyif İmamverdiyev, Misir Mərdanov, Şahlar Əsgərov, Tahir Məmmədov, Əli Həsənov və Ədilə Abbasova çıxış edərək müzakirə olunan məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

# ANAMA və BMT İnkişaf Proqramı Azərbaycandakı minatəmizləmə əməliyyatlarını dəstəkləmək üçün yeni maliyyələşmə sənədi imzalayıblar

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) rezident nümayəndəsi Alessandro Frakassetti münaqişədən sonra icma təhlükəsizliyinin bərpasına yönəlmiş yeni maliyyələşmə sənədini imzalayıblar.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, BMT İP-nin böhran vəziyyətləri üçün nəzərdə tutulan büdcəsindən və BMT-nin Fövqəladə hallara qarşı tədbirlər üzrə Mərkəzi Fondundan Agentliyə bir milyon ABŞ dolları məbləğində vəsait ayrılıb. Bu vəsaitlə BMT İP ANAMA-ya münaqişənin təsirlərinə məruz qalan ərazilərdə yaşayan yerli icmalar üçün ciddi risklər yaradan minaları və partlamamış hərbi sursatları təmizləmək üçün təcili müdaxilə qruplarını təlimləndirmək, təchiz etmək və yerləşdirmək üçün dəstək verəcək.

ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bu layihənin vacibliyini vurğulayaraq gələcək əməkdaşlığa ümidvar olduğunu qeyd edib.

Alessandro Frakassetti BMT İP-nin ANAMA-nı texniki təcrübə, avadanlıq, potensialın inkişafı və maliyyə vəsaiti ilə təmin edərək Azərbaycanda minatəmizləmə əməliyyatlarına dair dəstəyini genişləndirəcəyini bildirib. Rezident nümayəndə bu fəaliyyətin icmaların su mənbələrinə təhlükəsiz şəkildə çıxışının olmasına, evlər, məktəblər və səhiyyə klinikaları tikilməsinə kömək edəcəyini diqqətə çatdırıb.

BMT İP ANAMA-nı minatəmizləmə əməliyyatları zamanı ehtiyaclarının qiymətləndirilməsində dəstəkləyir, beynəlxalq təcrübəni paylaşır, fərdi qoruyucu vasitələr və mina təmizlənməsi avadanlıqlarının alınmasında Agentliyə yardım edir.

Bu əlavə dəstək çərçivəsində minatəmizləmə sahələrinin prioritetləşdirilməsi, minaların aşkarlanması üçün "istilik" xəritələrinin hazırlanması, eləcə də minatəmizləmə əməliyyatları üçün avadanlıqların və minaaxtaran itlərin alınması nəzərdə tutulur.

Qeyd edək ki, ANAMA 1999-cu ildə BMT İP-nin dəstəyi ilə təsis edilib. Son iyirmi ildə ANAMA və BMT İP Azərbaycanda 806 mindən çox mina və digər partlayıcı sursatın təmizlənməsinə yardım göstərərək 160 min 500-dən çox köçkün şəxsin evlərinə təhlükəsiz şəkildə qayıtmasına dəstək olub.

# Qarabağın dirçəlişi strategiyası uğurla icra olunur

## Başlanğıca qayıdışın təntənəsi



İlham Əliyev ulularımızın məskəni Azıx mağarasına gedərək bu torpaqların əzəli sahiblərinin möhtəşəm dönüşünü bir daha dünyaya çatdırdı

*Əvvəli 1-ci səh.*

İlham Əliyev qalib sərkərdə kimi Azıx mağarasına baş çəkərək başlanğıcımızın, yaradılışımızın, milli köklərimizin, təməlimizin var olduğu bu ulu məkandan Qarabağa möhtəşəm dönüşümüzün təntənəsini bütün dünyaya bəyan etdi. Azərbaycan xalqına məxsus bu qədim insan məskənini saxtalaşdırmağa, özününküləşdirməyə cəhd edən mənfur düşmənlərə bir daha mesaj verdi, bu torpaqlarda əzəldən var olan əsl sahiblərinin qayıdışını çatdırdı: "Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik".

Bu qədim düşərgə Xocavənd rayonunun Azıx kəndində, Tuğ çökəkliyində, Quruçayın sol sahilində yerləşir. Azıx mağarasının arxeoloji tədqiqatları tarixçi alim-arxeoloq Məmmədəli Hüseynovun adı ilə bağlıdır. Onun 20 ilədək apardığı tədqiqatlar göstərib ki, Azıx mağarasında və onun ətrafındakı Quruçay dərəsində həyat 2 milyon il əvvəl başlamışdı. 1968-ci ildə M.Hüseynov tərəfindən aşkarlanmış Azıx adamının alt çənə sümüyü Azərbaycanın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu təsdiq edir. Bu nadir tapıntıya görə Azərbaycan ərazisi "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil edilib və yaşına görə dünyada dördüncü, Avropada ikinci və keçmiş sovetlər məkanında isə birinci sırada dayanır.

Mağara on arxeoloji təbəqədən ibarətdir. Tarixi dövrlə bağlı ən qədim arxeoloji tapıntılar Azıx mağara düşərgəsinin VII-X təbəqələrindən aşkar olunub. Tapıntılar arasında 700 min il əvvələ aid 4 ocaq izi, ilkin dini ayinləri əks etdirən nadir qalıqlar və s. əldə edilib. Düşərgənin VII-X təbəqələrindən aşkar olunmuş tarixi tapıntılar, maddi-mədəniyyət nümunələri kompleks halda Quruçay mədəniyyəti adlanır. Quruçay mədəniyyətinin əmək alətləri Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə uyğunluq təşkil edir.

Təəssüf ki, Ermənistan tərəfindən işğal olunan torpaqlarımızda yerləşən digər tarixi, dini, mədəni abidələrimiz kimi, Azıx mağarası da vandalizmə, saxtalaşdırmaya məruz qalıb. Ermənilər mağarada Azərbaycan izlərini itirmək, eyni zamanda onu özlərinin tarixi ilə bağlamaq üçün qeyri-qanuni olaraq arxeoloji tədqiqatlar aparmaq üçün xarici ölkələrdən alimlər dəvət ediblər.

Azərbaycan hərbçiləri Xocavənd rayonunun işğaldan azad edilmiş Azıx kəndindəki evlərdən birinə baxış zamanı üzərində "Azıx" yazılmış və içərisində arxeoloji materialların olduğu qutular aşkar etmişdilər. Məlum olmuşdu ki, bu qutularda işğal müddətində dünya əhəmiyyətli abidə, Paleolit dövrünə aid ibtidai insan düşərgəsi olan Azıx mağarasında Ermənistan və digər ölkələrin alimlərinin apardıqları qanunsuz arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar qablaşdırılıb.

2020-ci il noyabrın 9-da Ali Baş Komandan İlham Əliyev işğaldan azad edildiyini açıqladığı 23 kəndin arasında Xocavəndin Azıx kəndinin də adını eşitdikdə Azərbaycan xalqının qüruru, sevinci ikiqat artmışdı. Nəhayət ki, illərdir düşmən əlində vandalizmə məruz qalan ulu əcdadlarımızın müqəddəs yurdu da azadlığına qovuşmuşdu.

Martın 15-də Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə Füzuli və Xocavənd rayonlarında oldular. Səfər zamanı Azıx mağarasına da baş çəkdilər. Ali Baş Komandan Azıx mağarasını onu düşmən caynağından xilas edən müzəffər sərkərdə kimi ziyarət etdi. Dağların zirvəsindəki bu ulu məskənimizdə qətiyyətlə "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!" haqq nidasını səsləndirərək bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlərin burada qanuni yollarla tədqiqatlar aparacaqlarını söylədi.

Dövlət başçısının müasir sivilizasiyanın inkişafa başladığı, qürurverici tarixi başlanğıcımızın bərqərar olduğu ən qədim insan və mədəniyyət məskənlərindən olan Azıx mağara düşərgəsinə qalibiyyət səfəri ilə sanki bütün xalqımız illərdir ayrı qaldığı başlanğıcına qayıtdı, yaradılışına qovuşdu, milli köklərindən yenidən doğuldu, ruhuna təzəlik çiləndi...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## İlham Əliyev Qarabağın tarixi şöhrətini bərpa edir

İkinci Qarabağ müharibəsində qazanılan Qələbə tariximizin döyüş meydanında yazılan qəhrəmanlıq salnaməsi oldu. Bu zəfərdən sonra bütün dünya Azərbaycanı daha da yaxından tanıdı, xalqımızın mübarizliyinə, işğala qarşı barışmazlığına şahidlik etdi.



Bu günlərdə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın Füzuli və Xocavənd rayonlarına, Qarabağın mirvarisi Şuşa şəhərinə etdikləri səfər bir daha Azərbaycanın qələbəsini bütün dünyaya bəyan etdi. Bu, cənab Prezidentin ötən ilin noyabrından indiyədək işğaldan azad olunmuş rayonlara etdiyi sayca altıncı səfəri idi. Cəmi 4 ay ərzində bu ərazilərə altı səfərin edilməsi göstərir ki, işğaldan azad olunmuş torpaqlarımızın hər qarışı, hər bir şəhər və rayonumuz, hər bir kənd və qəsəbəmiz dövlət başçısı üçün nə qədər əziz və doğmadır. Bu səfərlər həm də ondan xəbər verir ki, işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması, Böyük Qayıdış proqramının həyata keçirilməsi bu gün dövlətimizin qarşısında dayanan prioritet vəzifədir.

Füzuli və Xocavənd rayonlarına, Şuşaya səfər bütün dünyaya verilən mühüm mesajlarla yadda qaldı. Cənab Prezident bir daha diqqəti torpaqlarımızın güc yolu ilə azad olunmasının mümkünlüyünə, Azərbaycan Ordusunun qəhrəmanlığına çəkdi. Bu gün tanınmış hərbi ekspertlər də təsdiq edirlər ki, Vətən müharibəsi zamanı müasir döyüşlərin aparılmasının nümunələrini yaradan ordumuzun bütün əks-hücum əməliyyatları olduqca mükəmməl şəkildə hazırlanmış və hərbçilərimizin rəşadəti sayəsində uğurla həyata keçirilmişdir. Bəli, Ali Baş Komandanı İlham Əliyev olan ordunun keçirdiyi əməliyyatların nəticəsi başqa cür ola da bilməzdi. Bu baxımdan Ali Baş Komandanın Xocavəndə səfəri zamanı qeyd etdiyi kimi, Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi. Çünki Hadrutun azad olunmasından sonra düşmən tezliklə Füzulidən də qovuldu və ordumuzun Qarabağın qəlbi Şuşaya doğru yolu açıldı.

Bu səfər həm də Qarabağın tarixi Azərbaycan torpaqları olması, bu ərazidə yerləşən bütün maddi-mənəvi dəyərlərin xalqımıza məxsusluğu barədə bir daha dünyaya verilən mesaj oldu. Ermənistan 30 ilə yaxın işğal dövründə Qarabağdakı alban kilsələrinin erməniləşdirilməsinə, Azıx mağarasındakı qanunsuz araşdırmalarla tarixin saxtalaşdırılmasına cəhd edib. Hətta ermənilər Ağdamdakı Şahbulaq qalasında özlərinin saxta mifik tarixlərini yaratmışdılar. Amma qondarma erməni tarixini bu abidələrə bağlamaq mümkün deyil və təbii ki, ermənilərin bütün cəhdləri nəticəsiz qalıb. "Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin - alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər", - deyə Prezident İlham Əliyev Xocavəndin Hünərli kəndində Alban məbədi ilə tanışlıq zamanı bildirib.

Vətən müharibəsindəki qələbədən sonra dünya Ermənistanın işğalçı və terrorçu mahiyyətindən irəli gələn vandallığına, barbarlığınıa şahidlik etdi. Bunu düşmənin Qarabağımızın tacı, qəlbi Şuşada etdiyi vəhşiliklər də göstərir. Mənfur düşmən illər ərzində Şuşanı erməniləşdirmək istəsə də, bacarmayıb. Çünki Şuşa xalqımızın elə bir möhtəşəm mədəni abidəsidir ki, düşmən onu 28 ildə erməniləşdirə bilmədi. Onun hər küçəsi bir tarix, hər daşı bir xəzinədir, xalqımızın milli-mədəni sərvətidir. Bu şəhər 28 il yarım davam edən işğal dövründə erməniləri qəbul etmədi. Şuşa onlar üçün əvvəldən yad idi, işğal dövründə də yad olaraq qaldı. İlham Əliyevin dediyi kimi, Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

Hələ Prezidentin bu şəhərə ilk səfəri zamanı Bülbülün, Üzeyir Hacıbəylinin və Natəvanın büstlərinin qaytarılması ondan xəbər verirdi ki, Şuşa ən qısa müddətdə bərpa ediləcək. Budəfəki səfər zamanı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhərdə müxtəlif ünvanlara baş çəkdilər. Pənahəli xanın sarayı, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa Dövlət Rəsm Qalereyası, karvansaray tarix-memarlıq kompleksi, Şuşa Xalça Muzeyi kimi dağıdılan ünvanlar saxta tarixini yaradan Ermənistanın vandallığını, mədəniyyətə qənim kəsildiyini dünyaya çatdırdı.

Şuşanın əsl sahibləri geri qayıdıb, artıq şəhər yenidən qurulur. Tezliklə bu şəhər milli mədəniyyətimizin ünvanı kimi Azərbaycanı dünyada təbliğ edəcək. Bütövlükdə Prezident İlham Əliyevin Şuşaya ikinci, işğaldan azad olunmuş torpaqlarımıza isə altıncı səfəri, yeni infrastruktur layihələrinin təməlinin qoyulması təsdiq edir ki, həmin ərazilərimiz ən qısa vaxtda yenidən qurulacaq, Qarabağ bölgəsi tarixi şöhrətini bərpa edəcək.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***

## Böyük zəfərdən böyük quruculuğa...

*Əvvəli 1-ci səh.*

Amma Azərbaycan artıq qəsbkarları torpaqlarımızdan rədd edib. Onların 30 il ərzində dağıdıb viran qoyduqları yurdlarımızda indi genişmiqyaslı quruculuq işləri başlanıb. Azərbaycan xalqı öz tarixi missiyasını yenə davam etdirir. Qurub-yaradır, dünyada mədəniyyət nişanələri formalaşdırır, inkişafa, rifaha, insanın xoşbəxtliyinə qapı açır.

### Fotolardakı yaddaşın bələdçiliyi

Azərbaycan Prezidentinin Şuşaya növbəti səfəri yeni bir mövsümün, yeni bir həyatın başlanğıcında bunun daha bir xoş müjdəsi idi. Prezident İlham Əliyev bu ilin yanvar ayındakı səfərində Natəvanın, Üzeyir bəy Hacıbəylinin və Bülbülün büstlərinin Şuşaya qaytarıldığını xatırlatdı. Hər dəfə Şuşanı ziyarət etməyin zövqünü, onun başı qarlı, dumanlı dağlarının gözəlliyini, füsunkar mənzərəsini diqqətə çəkən dövlət rəhbərimizin hər bir sözü, hərəkəti böyük sevgi ilə insanlarımız tərəfindən izlənilir. Azərbaycan Prezidenti Vaqifin məqbərəsini də ziyarət etdi və bərpa işlərinə başlandığını bildirdi. Dövlət rəhbərimiz məqbərənin tezliklə əvvəlki görkəminə qaytarılacağını bildirdi. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı, 1982-ci ildə təntənəli şəkildə açılışı olan bu milli yaddaş məbədimizə tikilinin o dövrə aid arxiv fotolarını da gətirmişdi. Azərbaycan Prezidenti fotoların bələdçiliyi ilə məqbərənin açılış günündəki görkəminə aid nişanələrini dəqiqliklə göstərdi. Bu, bir tərəfdən Ulu Öndər Heydər Əliyevlə bağlı xoş xatirələr, digər tərəfdən isə erməni vandalizminin ifşası idi. Ölkə rəhbərinin nümayiş etdirdiyi fotolardan bir daha göründü ki, erməni vandalları Vaqifin məqbərədəki barelyefinə, qəbrinin üzərindəki sinə daşına qədər söküb aparıblar. Şuşada şairin büstünü dağıdıb yerində dükan tikiblər.

### Tarixi ədalətin bərpası

Şükürlər olsun ki, erməni quldurlarının əsarətindəki illər bitdi. Şuşa da, dağıdılmış başqa yurdlarımız da yenidən əvvəlki gözəlliyinə qaytarılacaq. Vaqifin məqbərəsi də tezliklə bərpa olunacaq. Prezidentimiz məqbərənin bərpası layihəsini Heydər Əliyev Fondunun öz vəsaiti hesabına həyata keçirəcəyini bildirdi: "Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə" dedi dövlət rəhbərimiz. Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilmiş bərpa-quruculuq layihələri ilə tanış olan hər kəs üçün bu, mükəmməlliyin başqa bir adı deməkdir. O deməkdir ki, Vaqifin muzey-məqbərə kompleksi qısa zamanda dünyanın ən gözəl mədəniyyət abidələrindən birinə çevriləcək. Şuşanın əsas simvollarından biri kimi bu məkanın adını tutub gələn axın-axın ziyarətçilərini qarşılayacaq. Burada yenidən ənənəvi Vaqif poeziya günləri keçiriləcək. Azərbaycan dilinin şirinliyi, xoş ahəngi bu dildə əbədiyyət ətirli şeirlər yazmış Vaqifin məqbərəsindən yenidən dünyaya yayılacaq. Gələcək nəsillərə soraq aparacaq. Tarixi ədalətin bərpası həm də budur!

Prezident İlham Əliyev Şuşadakı məscidlərin də, ermənilərin bu illər ərzində qurutduqları bulaqların da bərpa olunacağını bildirdi. Şuşanın qurucusu Pənahəli xanın sarayının qalıqlarını da ziyarət etdi. Erməni vandallarının Şuşada və başqa əzəli torpaqlarımızda törətdikləri dağıntıları bir daha acı təəssüf hissi ilə diqqətə çatdırdı: "Bura Pənahəli xanın sarayı olub. Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib.

Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər.

Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir. Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam".

### Əzəli, əbədi yurdumuz

Şuşaya səfəri zamanı dövlət rəhbərimiz şəhərin mərkəzi meydanındakı XIX əsrə aid karvansaray tarix-memarlıq kompleksinə, Şuşa Dövlət Rəsm Qalereyasının binasına, "Qarabağ" mehmanxanasına, Şuşa Xalça Muzeyinə, park hotelin yerləşəcəyi binaya və başqa tarixi tikililərə də baş çəkdi. Hər birində erməni vandalizminin mənfur izləri yaşayan bu binaların bərpası ilə bağlı tapşırıq və göstərişlərini verdi. Geri dönərkən yolüstü Daşaltı kəndində dayandı. Azərbaycan igidlərinin qəhrəmanlığını yaşadan bu kəndin gözəl təbiətinə, əsrarəngliyinə heyranlıq hissi ilə bir daha bəyan etdi: "Hansı tərəfə baxsan gözəllik, yaşıllıq. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq".

### Həyatımızın yeni dövrü

İşğaldan azad edilmiş torpaqlarımıza növbəti səfəri çərçivəsində Prezident İlham Əliyev ailə üzvləri ilə birgə Füzuli və Xocavənd rayonlarında da oldu. Azad torpaqlarımızı inkişafa qovuşduracaq yeni yolların - Füzuli-Hadrut və Hadrut-Cəbrayıl-Şükürbəyli yollarının təməlini qoydu. Bu avtomobil yollarının inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyacaq. Buna paralel başqa yol layihələri də icra edilməkdədir. Füzulidən Şuşaya dövlət rəhbərimizin "Zəfər yolu" adlandırdığı yol çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilməsi planlaşdırılır. Horadizdən Zəngilana qədər də yol çəkiləcək. "Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq" dedi Prezident İlham Əliyev və xüsusi vurğuladı ki, düşməni torpaqlarımızdan qovandan sonra indi həyatımızın yeni dövrü başlayır - quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü.

Bu, otuz ildir öz əsl sahibinin yolunu gözləyən və, nəhayət, nisgili, intizarı başa çatan yurdlarımızın yeni həyatının müjdəsidir: "Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı daş üstündə qoymayıb. Görün yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası "Artsax dövləti" - cəhənnəmə getdi. "Dövlət" idisə, bəs niyə daş daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır".

### Qət edilən zirvələr

Dövlət başçısı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı, qalib Ordumuzun əsgər və zabitləri önündə çıxış etdi. 44 günlük Vətən müharibəsinin gələcək tədqiqatçıları üçün bu çıxışların hər bir detalı çox önəmlidir. Ali Baş Komandan bildirdi ki, məhz Hadrutun azadlığından sonra Şuşaya doğru istiqamət götürülüb. Çünki Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Azərbaycan Ordusu yenə də düşmənin gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşıb. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayalara dırmaşaraq Şuşanı işğalçılardan azad edib. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Səfər zamanı Prezident İlham Əliyev ailə üzvləri ilə birgə Hünərli kəndindəki Alban məbədində, tarixi yaşayış məskənlərimizdən olan Tuğ kəndində, bu kənddəki qədim Alban mədədində, Azıx kəndində də oldu. Dünyanın ən qədim insan məskənlərindən olan Azıx mağarasına baş çəkdi. Prezident yada saldı ki, Ermənistan bu mağarada da qanunsuz işlər aparıb. Xaricdən qanunsuz olaraq alimlər cəlb edib. "Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar".

Dövlət rəhbərimizin Qarabağa əvvəlki səfərləri kimi, bu səfərindən də uca dağ zirvələrində o qürur dolu anları əbədiləşdirən fotolar çəkildi. Bu möhtəşəm anlar həmin fotolarda tarixiləşdi. Azərbaycan dövlətinin bundan sonrakı gələcəyini əks etdirən fotoların hamısında məhz zirvələr görünəcək. Çünki biz can atdığımız zirvələri, yüksəklikləri fəth etmişik. Bu zirvələrin sahibi bizik. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, elə zirvə yoxdur ki, biz onu qət edə bilməyək. Bu zirvələr ruh yüksəkliyimizdir. Vətənimizin gələcəyini də bu ruh yüksəkliyi ilə yaradacağıq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Müharibədən zərər görmüş vətəndaşların psixoloji reabilitasiyası davam edir

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində işğalçı düşməni torpaqlarımızdan qovaraq ərazi bütövlüyümüzü bərpa edib.

Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həm Birinci Qarabağ müharibəsi, həm də İkinci Qarabağ müharibəsi ilə əlaqədar şəhid ailələri, qazilər, müharibədən fiziki-mənəvi əziyyət çəkən insanlar hər zaman dövlət başçısının diqqət və qayğısı ilə əhatə olunublar. Bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli, zəruri tibbi, o cümlədən psixoloji yardım təminatı daim diqqət mərkəzində saxlanılır.

Bu çərçivədə FHN-in dəvəti ilə Türkiyədən gəlmiş peşəkar klinik-psixoloq və psixoterapevtlər nazirliyin mütəxəssisləri ilə birlikdə Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşlarımızın psixoloji reabilitasiyasını davam etdirirlər. Artıq fevralın 26-dan etibarən Bakı ilə yanaşı, Gəncə və Bərdə şəhərlərində də müharibədən və erməni terrorundan fiziki-mənəvi zərər görmüş vətəndaşlarımızın psixoterapevtik reabilitasiyasına başlanılıb. Ümumilikdə ötən müddət ərzində FHN-in 112 - qaynar telefon xətti vasitəsilə mütəxəssislərin qəbuluna yazılmış 1000 nəfərdən artıq Vətən müharibəsi iştirakçısı, qazi, şəhid ailəsi üzvü və erməni terrorundan zərər görmüş digər şəxslərə, o cümlədən 90-a yaxın uşaq və yeniyetməyə müvafiq yardımlar göstərilib.

Xatırladaq ki, ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək üçün FHN-in 112 - qaynar telefon xətti ilə əlaqə saxlamaq lazımdır.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təbrikdə Şeyxülislam Allahşükür Paşazadə qədim və gözəl bahar bayramı, yeni günün və yenidən dirçəlişin timsalı olan Novruz münasibətilə xalqımızı ürəkdən təbrik edib, ona Allah-Təaladan səadət və rifah, xeyirli və bərəkətli ömür arzulayıb: “Builki Novruzumuz özəl ab-havası olan bayramdır, çünki onun gəlişi 30 illik Qarabağ həsrətinin sonu, illər boyu etdiyimiz duaların qəbul olduğunu bildirən Zəfər müjdəsidir. Artıq neçə müddətdir ki, xalqımız öz tarixinin ən möhtəşəm bayram sevincini - Vətən müharibəsindəki Qələbənin qürurunu yaşayır. 44 gün davam edən savaş Ermənistanın məğlubiyyəti ilə Azərbaycan Ordusunun şanlı zəfəri kimi tarixə yazıldı. Qəhrəman Azərbaycan əsgəri işğaldan azad olmuş ərazilərdə Ulu Öndər Heydər Əliyevin “Dövlətçiliyimizin və müstəqilliyimizin əbədi rəmzi” adlandırdığı üçrəngli bayrağını qaldırdı. Azərbaycanın ayrılmaz hissəsi olan bu torpaqlarda dövlət bayrağının dalğalanması, Şuşa və Ağdam məscidlərinin minarələrindən azan səslərinin ucalması tarixi ədalətin bərpası anlamını verir və bu mübarək günləri bizə, bütün xalqımıza yaşatdığı üçün Uca Yaradana və dövlətimizə sonsuz həmd-sənalar edirik!



Biz fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, adı tarixin qızıl səhifəsinə yazılan Zati-aliləri Ali Baş Komandan İlham Əliyevdir. Vətən müharibəsi ərzində onun liderlik əzmi, qətiyyətli siyasəti, mərdliyi, cəsarəti hər kəsə - ordumuzun əsgərinə, xalqımızın övladlarına, dinindən və millətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz anlar yaşatdı, dünya ictimaiyyəti Azərbaycanın siyasi liderinin qüdrətinin və ölkəmizdəki sarsılmaz xalq-dövlət birliyinin şahidi oldu”.

Şeyxülislam bildirib ki, bu gün biz Azərbaycan dövlətinin gələcəyinə böyük inam və ümidlə baxırıq. Bu ruh yüksəkliyinin əsas mənbəyi dövlət başçısı İlham Əliyevin prinsipial və qətiyyətli mövqeyi, ölkəmizdə aparılan genişmiqyaslı quruculuq işləri, xalqın rifahına yönələn sosial-iqtisadi proqramların gerçəkləşməsidir. Ali Baş Komandan İlham Əliyev mətin sərkərdə kimi öz xalqının dərin məhəbbət və etimadını qazanmış, rəşadətli ordusunun qüdrətinə güvənən yenilməz dövlət lideri olaraq Azərbaycan həqiqətlərini, Qarabağ reallıqlarını inam, qətiyyət və siyasi mədəniyyət nümunəsi ilə dünya ictimaiyyətinə çatdırmaqla qlobal miqyaslı dövlət xadimi kimi tanınmışdır. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu gərgin və məsuliyyətli dövr ərzində yerinə yetirdiyi siyasi, ictimai və mədəni missiyanı tarixi fenomen adlandırmaq olar. Şəhid və qazi ailələrinə, yaralı hərbçilərə göstərilən nəcib şəfqətli münasibət, maddi-mənəvi dəstək, sosial yardım proqramlarına rəhbərlik - bunların hamısı bir Azərbaycan xanımının dünyaya bəyan etdiyi yüksək mədəniyyətin və Vətən övladlarına olan ana məhəbbətinin nümunəsidir. Mehriban xanım Əliyevanın timsalında biz Azərbaycanın bu gününün və sabahının təminatçısı olan Zati-aliləri cənab Prezident İlham Əliyevin fədakar yardımçısını və etibarlı silahdaşını görürük. Novruz adətlərimizə uyğun olaraq, dindarlarımız adından mən bu əziz bayram günlərində Azərbaycanın əzəli torpaqları olan Qarabağın və İslam dünyasının mədəniyyət beşiyi Şuşanın işğaldan azad olunması münasibətilə Zati-aliləri İlham Əliyevi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı səmimi-qəlbdən təbrik edir, dövlətimiz naminə gördükləri fövqəladə fəaliyyətlərə Allahdan xeyir-dualar diləyirəm.

Qələbə - daim dindarlarımızın, hər bir azərbaycanlının dualarında olmuşdur. Fəqət həsrətində olduğumuz Qələbə naminə övladlarımız Allah yolunda, Vətən və millətin azadlığı uğrunda canlarını fəda etdilər, qanları ilə qazandıqları Azadlığı gələcək nəsillərə əmanət etdilər. Onların hər birinin boynumuzda haqları vardır, bu əziz Novruz günlərində Vətən uğrunda şəhid olan qəhrəman övladlarımızı rəhmət duaları ilə yad etmək, ailələrinə, yaxınlarına başsağlığı vermək, qazilərimizə, yaralılarımıza Allah-Təaladan şəfaət və səadət diləmək bizim vəfa borcumuzdur. Biz Qarabağda dalğalanan Azərbaycan bayrağı naminə canından keçən hər bir şəhidimizə Allahdan rəhmət diləyir, yaralılarımıza şəfalar arzulayırıq.

“Əziz həmvətənlərim, Novruz Azərbaycan xalqının çoxəsrlik tarixində özəl yeri və milli önəmi olan bayramlardandır. Min illərboyu qeyd edilən mübarək Novruz torpağın oyanışını, təbiətin yenilənməsini və bəşərin intibahını təcəssüm etdirmişdir. “Qurani-Kərim”də bu dirçəlişin ilahi mənası açıqlanır: “Allah göydən yağış göndərir, onunla Yer üzünü öldükdən (quruduqdan) sonra yenidən diriidir” (Nəhl, 65). Novruzda savaşlar dayanmış, küsülülər barışmış, insanlar sevinclərini və sabaha ümidlərini bir-biri ilə bölüşmüşlər. Bu əziz günlərdə dünyadan gedənlərə rəhmət diləmək, valideynləri, ağbirçək və ağsaqqalları yada salmaq, imkansızlara, ehtiyacı olanlara yardım etmək, ailə məhəbbətini və dostluq tellərini bərkitmək xalqımızın milli mədəniyyətinin ən gözəl nümunəsidir.

Bu ilin təqviminə görə, Azərbaycanın üfüqi vaxtı ilə 20 mart tarixində, saat 13.37.20-də il Öküz bürcü üzərində təhvil olacaqdır. İl təhvili günorta zöhr namazından sonraya təsadüf etdiyi üçün, bu il bayram axşamı martın 20-də, mübarək Novruz bayramı isə martın 21-də qeyd olunacaqdır. Bu günlər ərzində edilən ibadət və dualarda mərhumları rəhmətlə yad etmək böyük savabdır. Uca Yaradana həmd-səna, süfrələrə xeyir-bərəkət, nemətlərə şükür duaları ilə Novruza qədəm qoyan xalqımızı bir daha təbrik edir, hər ailəyə xoşbəxtlik, hər evə rifah və əmin-amanlıq diləyirəm. İnşallah, bundan sonra Novruzu artıq doğma Qarabağda qarşılayacaq, illərin acısını tonqallarda yandırıb, arzularımızı səməni kimi göyərdəcəyik. Novruz bayramımız mübarək olsun!”, - deyə şeyxülislam təbrikdə bildirir.

# Gəncədə “Gencesehidleri.az” saytının təqdimatı olub

Təqdimat mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş Konsulu Zeki Öztürk, Milli Məclisin deputatı Naqif Həmzəyev, ziyalılar və KİV nümayəndələri iştirak ediblər. Tədbirin əvvəlində Vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunub.

Sonra Niyazi Bayramov çıxış edərək Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinin daim uca tutulduğunu bildirib. Qeyd edib ki, şəhid ailələri dövlətin diqqət və qayğıkeşliyi ilə əhatə olunublar. Canını Vətən uğrunda qurban verən igid oğullarımızın xatirəsinin yaşadılması və onların tanıdılması isə hər bir azərbaycanlının borcudur. Bu baxımdan yeni yaradılan sayt Azərbaycanda bir ilk olaraq xüsusi əhəmiyyət kəsb edir.

Daha sonra “Gencesehidleri.az” saytı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, sayt Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, “Zaferoğlu İnşaat”ın dəstəyi ilə “Netqraf Group” tərəfindən hazırlanıb. Layihənin əsas məqsədi Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsini yaşatmaqla onları tanıtmaqdır. Sayt Gəncənin Birinci Qarabağ və Vətən müharibələri, mülki və digər şəhidləri barədə məlumatları vahid platformada toplayıb. Burada ümumilikdə 600-ə yaxın şəhid barədə məlumat yerləşdirilib.



Saytda “Layihə haqqında”, “Tariximiz”, “Şəhidlərimiz”, “Media”, “Hesabat”, “Faydalı”, “Xatirə dəftəri” bölmələri yaradılıb. Sonuncu bölmədə şəhidliyin ailə üzvləri, yaxınları, sinif, tələbə, iş və döyüş yoldaşları sözügedən bölməyə daxil olaraq, şəhid barədə öz xatirələrini oxucularla bölüşə bilirlər.

Tədbirdə çıxış edən “Zaferoğlu İnşaat”ın rəhbəri Zəfər Məmmədov vurğulayıb ki, layihənin davamı olaraq, Gəncənin Şəhidlər xiyabanındakı məzarların üzərinə QR kodlar yerləşdiriləcək. Xiyabanı ziyarətə gələnlər öz telefonlarını həmin QR kodların üzərinə tutaraq sayta keçid edə və şəhid haqqında ətraflı məlumat ala biləcəklər.

AMEA-nın Gəncə Regional Bölməsinin sədri Fuad Əliyev isə bildirib ki, Gəncə şəhidləri barədə məlumatların yer aldığı monoqrafiya çapa hazırlanır. Yaxın günlərdə monoqrafiyanın ilkin variantı müzakirə üçün təqdim olunacaq.

Təqdimat mərasimində çıxış edən teatrşünas-tənqidçi Anar Bürcəliyev saytın yaradılmasını Vətən uğrunda canından keçən igid oğullarımıza və şəhid ailələrinə göstərilən diqqətin nümunəsi kimi qiymətləndirib. Şəhid ailəsi olaraq hər zaman dövlətin və şəhər rəhbərliyinin qayğıkeşliyini hiss etdiyini deyən A.Bürcəliyev bu işə əmək sərf edən hər kəsə minnətdarlığını bildirib.

Tədbirdə Zeki Öztürk, Naqif Həmzəyev, “Gəncənin səsi” qəzetinin baş redaktoru Rəfiqə Sadıqova və başqaları çıxış edərək yeni yaradılan saytın şəhidlərimizin ölkə və dünya miqyasında tanıdılması baxımından önəm kəsb etdiyini bildiriblər. Vurğulayıblar ki, Azərbaycan xalqı öz şəhidlərini heç vaxt unutmayacaq, onların xatirəsi daim uca tutulacaq.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan Ordusunun əməliyyat-taktiki təlimləri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən əməliyyat-taktiki təlimləri uğurla başa çatıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dağlıq-meşə və çətin relyefli ərazilərdə keçirilən təlimlərdə əsas diqqət Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla şəxsi heyətin və hərbi idarəetmə orqanlarının peşəkarlıq səviyyəsinin artırılması, döyüş texnikasının və digər hərbi vasitələrin tətbiqi, o cümlədən qoşunların terrorçu dəstələr (qruplar) və qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və antiterror əməliyyatlarının həyata keçirilməsi üzrə təlim-döyüş tapşırıqlarının icra edilməsinə yönəldilib.

Mürəkkəb şəraitdə keçirilən təlimlərdə müxtəlif qoşun növləri arasında qarşılıqlı fəaliyyətin təşkili üzrə tapşırıqlar uğurla yerinə yetirilib, qoşunların idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsi, döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilib.

Təlim rəhbərliyinin qiymətləndirməsinə əsasən qoşunlar qarşıya qoyulan məqsədlərə tam nail olub. Şəxsi heyət döyüş əməliyyatlarının aparılması üzrə praktiki təcrübə əldə edib, həmçinin yüksək səhra vərdişləri nümayiş etdirib.

# Əlamətləri eyni, yoluxduruculuq qabiliyyəti yüksək olan koronavirusun Britaniya ştammı yayılmaqdadır

Dünya koronavirus epidemiyası ilə birdəfəlik vidalaşacağı xəbərinin müjdəsini gözləyir. Bu təhlükəli virus isə dondan-dona girərək yoluxma və ölüm saylarını artırmaqda davam edir.

Ümumdünya Səhiyyə Təşkilatının həftəlik epidemioloji bülletenində qeyd olunur ki, keçən həftə virusun müxtəlif variantları barədə məlumat verən ölkələrin sayı artmaqdadır. VOC 2020.12/01 koronavirusundan başqa, ilk dəfə Cənubi Afrikada aşkar olunmuş 501Y.V2 ştammının coğrafiyası da genişlənərək 64 ölkəyə çatıb. Əvvəlcə Braziliya və Yaponiyada təsbit edilən P.1 ştammı daha 6 ölkədə aşkar edilib.

Artıq xeyli müddətdir ki, koronavirusun Britaniya ştammı meydana çıxıb. Bu ştammın daha təhlükəli olduğu, sürətlə yayıldığı, ağır keçirildiyi bildirilir. Alimlər Britaniya ştammının əvvəlki növlərlə müqayisədə 50 faiz daha yoluxucu və 65 faiz daha öldürücü olduğunu müəyyənləşdirib. Bu ştammın yayılmasının qarşısını almaq üçün Avropada bir çox ölkələr üçüncü dəfə qapanma qərarını veriblər.

Təəssüflə qeyd edək ki, ölkəmizdə də koronavirusun Britaniya ştammı aşkarlandı. Milli Hematologiya və Transfuziologiya Mərkəzindən verilən məlumata görə, Azərbaycana xaricdən daxil olan və ölkədə yaşayan şəxslərdən alınan nümunələrdə mütəmadi olaraq “Sars Cov-2” genom analizləri edilərək şübhəli variantlar təqib olunur. Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Genetik Diaqnoz Mərkəzində “Sars Cov-2” genom analizi edilən üç nümunədə 501Y.V1, B.1.1.7 (Britaniya variantı) aşkar edilib.

TƏBİB-in İnfeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev bildirib ki, Azərbaycanda koronavirusa yoluxma sayının artmasını ölkəmizdə Britaniya ştamminın olması ilə əlaqələndirmək doğru deyil. O, vurğulayıb ki, adi bir insan özü COVID-19-un Britaniya ştammına yoluxub-yoluxmamasını təyin edə bilməz.

Bu gün ən çox düşündürən və narahatlıq doğuran suallardan biri də budir ki, Britaniya stammını COVID-19-dan necə fərqləndirmək olar? Vasif Əliyevin sözlərinə görə, bu ştammın da əlamətləri eynidir, onun sadəcə yoluxduruculuq qabiliyyəti yüksəkdir: “Bu ştamma yoluxma zamanı təyin olunan müalicədə də hər hansı fərq yoxdur”.




Britaniya ştammı adlandırılan koronavirusun yeni növü 2020-ci ilin sentyabrında ilk dəfə Kent qraflığında müəyyən edilib. Yeni ştamm sürətlə yayılaraq qısa müddətdə Britaniyanın bütün ərazilərində aşkarlanıb. Avropa və ABŞ-da aparılan son araşdırmaların nəticələrində martın ortalarından etibarən koronavirusun mutasiya olunmuş versiyasının, xüsusilə Britaniya ştammı ön plana çıxacağı açıqlanırdı. Təxmin edilirdi ki, aşkarlanan yeni yoluxmaların yarısından çoxu yeni ştammlar olacaq.

Son statistikalara əsasən, Britaniya ştammı 110-dan çox ölkədə qeydə alınıb. Bir sıra ölkələrdə, məsələn, Estoniyada bu ştammın yoluxma sayına görə koronavirusun ilkin növünü ötdüyü açıqlanıb. Statistik hesablamalara görə, ABŞ-da ümumi yoluxma hallarının 25-30 faizini virusun bu növü təşkil edir. Hazırda Azərbaycana qonşu olan Gürcüstan, İran və Türkiyədə də yeni ştammlar aşkarlanıb. Türkiyədə indiyədək koronavirusun Britaniya ştammına yoluxma faktı qeydə alınan insanların sayı 41 mindən çoxdur. Son məlumatlara görə, Gürcüstanda 31, İranda isə 62 nəfərdə bu növə yoluxma halı aşkarlanıb.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Bürosunun direktoru Hans Klüge açıqlamalarının birində yeni ştammın daha çox gənc yaş qrupları arasında yayılma ehtimalının olduğunu bildirmişdi.

Britaniya ştammına yoluxanlarda əsasən öskürək, güclü yorğunluq, boğaz və əzələ ağrıları kimi simptomlar müşahidə olunur. Həmçinin Böyük Britaniyanın Milli Statistika Xidməti yeni ştammda iybilmə qabiliyyətinin itirilməsini “Çin” variantına nisbətən özünü daha zəif büruzə verdiyini müəyyənləşdirib. İngiltərədə koronavirusa yoluxmuş 6 min təsadüfi sakindən götürülən məlumatlar əsasında bu nəticəyə gəlinib. Yoluxanların çoxunda bu üç simptomdan ən azı biri aşkar olunub. Tədqiqatlar zamanı 2020-ci il noyabrın ortalarından 2021-ci il yanvarın ortalarınadək xəstələnən insanlardan götürülən analizlərin nəticələri nəzərə alınıb.

Yeni ştamma yoluxmuş 3,5 min nəfərlik qrupda 35 faiz öskürəkdən, 32 faiz yorğunluqdan, 25 faiz əzələ və ümumən bədəndəki, 21,8 faiz isə boğazdakı ağrılardan şikayətlənib. Xəstələrin 16 faizində dadbilmə, 15 faizində isə iybilmə qabiliyyətinin itdiyi müəyyənləşdirilib. Baş ağrısı, tənəffüs, ishal və qusma ilə bağlı məlumatlar eyni olub.

Virusun mutasiyaya uğramış formasının yoluxdurma əmsalının SARS-CoV-2-nin yoluxdurma əmsalından minimum 35 faiz daha yüksək olduğu İngiltərədə aparılan son elmi tədqiqatda əksini tapıb. Mutasiya olunmuş viruslu xəstənin ətrafındakıları yoluxdurma faizi 15 faizdir.

Ölkəmizdə koronavirusun Britaniya ştammının aşkarlanması faktı əhalini daha da ehiyatlı olmağa səsləyir. Qeyd edək ki, hazırda koronavirus əleyhinə vaksinasiya davam edir. Ölkəmizdə koronavirus əleyhinə istifadə edilən “Coronavac” vaksinin yeni ştammlara qarşı da effektiv olduğu bildirilir. Bundan başqa, gigiyenik tələblərə əməl etmək, maska taxmaq, məsafə saxlamaq kimi sadə, lakin zəruri məsələlərə ciddi yanaşmaq vacib olaraq qalır. Unutmayaq ki, özümüzü koronavirusun bütün növlərindən qorumağa çalışmaqla, həm də doğmalarımız, yaxınlarımız da daxil olmaqla, bütövlükdə cəmiyyətin sağlamlığının qayğısına qalırıq.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***


## “Azərsu” ASC daxili vəsaiti hesabına Ceyranbatan su anbarının suyunun emal olunması üçün membran texnologiyalı Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin ultrasüzgəc membranlarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Malgöndərənlərə (Podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- texniki tələb;
- ödəniş şərti;
- çatdırılma şərti;
- tenderin tələblərinə uyğun aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva propekti, 67 ünvanında “Azərsu” ASC-nin Satınalmaların təşkili şöbəsindən əldə edə bilərlər. Əlaqələndirici şəxs: Hikmət Qasımov, telefon +994124314767 (2249)

**Tenderdə iştirak haqqı 850 AZN və ya bu ekvivalentdə Avro və USD.**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank” ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
